# Abay bədii-fəlsəfi yaradıcılığının mənbələri



Nizami Məmmədov
TAĞISOY

Abay yaradıcılığının başlıca mahiyyətini dərindən dərk etməkdən ötrü ilk növbədə böyük mütəffəkirin bədii-fəlsəfi konsepsiyasını dərindən öyrənməyə ehtiyac vardır. Əlbəttə, bu konsepsiyanı dini-mənəvi, sosioloji-ictimai, ədəbi-bədii, psixoloji-pedaqoji, etik-estetik və s. mövqelərdən dəyərləndirmək olar. Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin irəli sürdüyü "İntellektual millət-2020" konsepsiyası da məhz Abayın bədii-fəlsəfi təliminin dayaqlarına söykənir. Buna görə də Abayın bədii-fəlsəfi konsepsiyası həm də mənəviyyat elmi, dini-fəlsəfi mövqelərdən izah oluna bilər. Belə ki, Abay vicdan, mənəviyyat, insanlıq, bəşərilik kimi kateqoriyaları sosial-siyasi diskurs baxımından izah etməyə üstünlük verirdi. Abayı həyatı boyu xüsusi olaraq günahsız həyat tərzi, fani dünya xoşbəxtliyi, ayrı-ayrı fərdlərin və cəmiyyətin xoşbəxtliyi məsələsi maraqlandırırdı. Abay düşüncəsində bədii-fəlsəfi kontekst dini-fəlsəfi kontekstdən sosial-siyasi, bəşəriyə üz tutmaqla həm də estetik və mədəni xarakter əldə edir. Abay konsepsiyasında insan həyata baxış sərgiləməklə, öz ölkəsinin gələcəyi və onun inkişafı uğrunda çalışmaqla "estetik xidmət"lə məşğul olmaqla estetik kateqoriya mərtəbəsinə yüksəlir. Bütün bunları Abay öz həyat və yaradıcılığı nümunəsində parlaq şəkildə sübut etmişdir. Onun yanaşmasına görə insanın şəxsiyyət kimi formalaşdığı prosesdə (mənəvi, dini, sosial, fəlsəfi, etik, dünyagörüşü, siyasi, estetik, pedaqoji, psixoloji, yuridik və s.) bütün fəaliyyəti "xidmət estetika"sını nəzərdə tutmalıdır. Başqa sözlə desək, insan nəinki bunu həyatı dərk etməklə nəzəri planda, həm də praktikada gördüyü işləri ilə sübut etməlidir.

Hədislərdən birində deyildiyi kimi, "İnsanlara xeyirxahlıq gətirənlər ən yaxşı adamdır" baxışını Abay daim ön plana çəkib cəmiyyətdə xeyir işləri yaradanları təbliğ edirdi.

Abayın mənəviyyat konsepsiyasında "Elm"ə xüsusilə böyük diqqət yetirilirdi. Elmə nəzər salarkən o, Elmi ən mühüm mövqedə qoyurdu. Eyni zamanda onun fəlsəfəsində üç mühüm keyfiyyətindən bəhs edilirdi ki, burada Abay ağılı, təfəkkürü, intellekti daha yüksək dəyərləndirirdi. Çünki böyük mütəfəkkirin düşüncəsində təfəkkür elmin sinonimi kimi nəzərdən keçirilirdi. O, əsərlərində dəfələrlə sübut etməyə çalışmışdır ki, təfəkkürsüz elm, elmsiz təfəkkür yoxdur. Onlar bir-birini zənginləşdirməklə, həm də bir-birinin yüksəlməsinə səbəb olur. "Öyrənməmiş danışma" şeiri bu baxımdan nümunə kimi göstərilə bilər:

*Öyrənməmiş danışma,*
*Boş söhbətə alışma,*
*Keçən gündə əyləncə*
*Axtarmağa çalışma.*
*Yamanıyla tən gedən*
*Adam olmaq istəsən,*
*Beş şeyi ayaqla keç,*
*Beşinisə ara, seç*
*Yalan, riya, işsizlik,*
*Lovğalıq və acı dil -*
*Beş düşməndir sənə, bil*
*Ağıl, zəhmət, xoş qılıq,*
*Təvazö və yaxşılıq -*
*Beş yaxın dostdur sənə.*

Göründüyü kimi, Abay burada Yusuf Balasaqunlu, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Abasqulu Ağa Bakıxanov kimi mütəfəkkirlərin yolu ilə getməklə insanın neqativ keyfiyyətlərdən azad olub, ağılın, zəhmətin, xoşqılığın, təvazönün və yaxşılığın "beş yaxın dost" olduğunu təlqin edir.

Abay elmi üç yerə bölür: bəşəri elmlər, Allah haqqında elm və təbiətşünaslıq elmləri. "Məlumdur ki, Elm Gözəgörünməzin çoxsaylı sifətlərindən, görkəmlərindən biridir. Buna görə də Elmə sevgi - bəşərilik göstəricisi, təvazökarlıqdır". Odur ki, Abay insanların həyatında elmin dəyərini yüksəltməklə insanları elmə can atmağa daha çox səsləyir. Elə bunun nəticəsində Abaya görə hər bir insanın düşüncəsində elmin üç tərəfləri cəmləşməlidir. Çünki insan yalnız bəşəri elmlərin öyrənilməsi ilə məhdudlaşmamalıdır. Onda Allahla bağlı elmə, təbiətşünaslıq elminə də böyük məhəbbət olmalıdır. Abayın yaradıcılığında mühüm yer tutan "Əqliyyə" (yaxud "Qara sözlər"də) bununla bağlı xeyli nümunələrə rast gəlirik. Buna görə də biz Abayın "Əqliyyə"lərində az qala peyğəmbərimizin hədisləri ilə səsləşən məqamları görürük. "Əqliyyə"nin "Otuz səkkizinci söz"ündə oxuyuruq: "Ta qədimdən "elm" anlayışı mövcuddur. İnsanların gözündə elm qeyri-adi və mücərrəd bir şey deyil, bəşəriyyətin səadəti üçün mövcud olandır... İnsanın elmə münasibətinin təmizliyi də haradasa bu yerdə yaranır ki, bunun özü də insanın Allaha münasibətini göstərir. Çünki elm ilahinin qüdrətinin təzahür formalarından, onun keyfiyyətlərindən biridir.

Elmə var dövlət, şöhrət və hörmət naminə gedən şəxs heç vaxt onun mahiyyətini dərk edə bilməz..., qazanc güdən kəs insanlığını itirir. Və əksinə, var-dövlət də, şan-şöhrət də, hörmət də gərgin əməyin nəticəsi kimi gələndə insan gücü olur...

...Mənim sözlərim namusla dostluq edən, haqqı sevən və həqiqəti bilmək istəyənlərə ünvanlanıb.

...Allahın adları onun gözəl təzahür formalarının adlarıdır...

Həyat kainatda, kainat isə Allahda mövcuddur. Allah isə Məhəmməd əleyhissalamın hədislərindəki kimi, özünün şəksiz əsas təzahürlərində və doxsan doqquz keyfiyyətində təzahür edir.

...Elm insanlara söz vasitəsilə çatdırılır, söz isə səs və ya işarələrlə. Allahın aşağıdakı üç keyfiyyəti buna əsaslanır: Nitq, Görmə və Eşitmə.

Allahın yaratdığı bu dünyada öz ağlına, iradəsinə, bədəninin gücünə söykənən insan görəndə, onun həyat uğrunda mübarizəsini, yorulmazlığını görəndə, nədənsə, Allah-təala haqqında insana bənzəyən bir varlıq kimi düşünürsən.

...Elmlər insanların inkişafının, xalqların tərəqqi yolunun, insanların Allahı, təbiəti və özlərini dərk etmək yolunu təcəssüm etdirirlər".

Gördüyümüz kimi, Abay elmə can atan insanları daim insanlığın fövqündə qoyur. Əsl alimləri o, insanların yaratdığının nüvəsi kimi görür. Onun fikrincə, məhz ağılı, təfəkkürü işlək insanların köməyi ilə dünyada hər şey öz qaydasını, səliqə-sahmanını əldə edir.

Abayın dedikləri üzərində düşünərkən görünür ki, böyük filosof ağılı soyuğa, işıqlıya və ziyalıya bölməklə ağılın insan cəmiyyətindəki xeyir və zərərindən də yetərincə geniş və əsaslı bəhs edir. Bunu biz şairin konseptual proqramlı "İnternatda oxuyurlar" ("İnternatta okın jur") şeirində təhsilin, pedaqogika və tərbiyənin fəlsəfi məsələlərinin qabardılmasında da görürük. Bu şeirdə qazax cəmiyyətinin həqiqətləri əks olunsa da, əslində, bütün bəşəriyyət üçün ümumi olan problem ortaya qoyulmuşdur. Burada Abayın yanaşmasında başlıca məqsəd insan təfəkkürünün, qəlbinin, əxlaqının kamilləşməsi məqsədi ilə "Öz xeyirin haqda yox, bəşəriyyət haqda düşün" ("Payda oylama, ar oyla") böyük müdrikin konsepsiyası olaraq səslənir. Burada Abay, sanki elmə aparan innovasion yolu göstərməklə, hər elmi-texniki tərəqqinin və inkişafın nüvəsində dayanan əxlaq və mənəviyyatı ön plana çəkir.

Abay həm də hesab edirdi ki, elm insan cəmiyyətinə xidmət etməlidir, bəşəriyyətin süurunu kamilləşdirməlidir. Elm bir insanın, yaxud bir dövlətin digər insanlar, yaxud digər dövlətlər üzərində hegemonluq alətinə çevrilməməlidir. Elm və elmi-texniki tərəqqi yaradıcılıq motivasiyasını əldə rəhbər tutmalıdır. Dərindən düşündükdə belə görmək olur ki, Abayın elm haqqında düşüncəsi və konsepsiyası çağdaş dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır.

Abay elmə belə yüksək dəyər verməklə yanaşı, mənəvi-etik məsələləri də diqqətdən kənarda qoymurdu. 1882-ci ildə qələmə aldığı ən yaxşı əsərlərində insanların hər gün, ya hər həftə nə etmələri ilə bağlı özlərinin özlərinə hesabat vermələrini zəruri hesab edirdi. 1890-cı ildən başlayaraq 1898-ci ildə qədər o, öz fikirlərini nəsr şəklində yazmışdı ki, sonra bu fikirlər 45 nəsihət, yaxud fəlsəfi traktat kimi "Qara sözlər", yaxud "Əqliyyə" şəklində ortaya gəlmişdi.

Abayın nəinki "Əqliyyə"sində, həm də zəngin poetik yaradıcılığında insanlardakı qeybət, yalan, məkr, riyakarlıq, tənbəllik, israfçılıq və s. tənqid atəşinə tutulurdu. Bunun təsdiqini biz "Mən şeir yazmıram ki, əylənsinlər nadanlar" nümunəsində də görürük:

*Mən şeir yazmıram ki, əylənsinlər nadanlar,*
*Yalan əfsanələrlə tovlamıram başları.*
*Şairin özü kimi hələ cavan adamlar -*
*Mənim şeirlərimdən bir şey öyrənsin barı.*
*Dayazlar, müştəbehlər yox, başa düşməz kimi,*
*Həssas ürəklər üçün oxuyuram nəğməni.*
*Nə saçı yerə dəyən ifritə, nə əjdaha,*
*Nə islam məddahları ucatmadı nəğməmi.*
*Mən ki, məlum şeirlər vermirəm hər qocaya,*
*Sözümlə korlamıram neçə yeniyetməni.*

Abay cəmiyyətə, xüsusən uşaqlara, gənclərə həyatda öz yerindən danışmaqla, həm də onların özünün necə olmasını əsərlərinin köməyi ilə aşılayır, öz bilik və bacarıqlarını xalqın avamlıqdan oyanmasına və hüquqları uğrunda mübarizəyə səsləyirdi.

Bununla Abay insanları öz hüquqlarına yiyələnməyi ön plana çəkirdi. Onu da qeyd etməliyik ki, böyük mütəfəkkirin bədii-fəlsəfi konsepsiyası özünün başlanğıcını üç mənbədən - şifahi xalq yaradıcılığından, Şərq və türk poeziyasından və nəhayət, rus və Avropa ədəbiyyatından götürmüşdü. Böyük şairin milli-mental düşüncədən qidalanması onu dünya çapında məşhurlaşdırmaqla, həm də əsərlərinin türk xalqlarının - Azərbaycan, özbək, tatar, qırğız, türk, qaraqalpaq və digərlərinin dillərinə çevrilməsini zəruri etdi.

Odur ki, Abay yaradıcılığı XX əsrin ortalarından başlayaraq, dünya xalqlarının dilində səsləndirilməklə, qazax xalqının milli dəyəri kimi qəbul edilib, bütün yer üzündə ayaq açıb addımlamaqdadır. Bunu biz nəinki 1995-ci ildə YUNESKO xətti ilə Abayın anadan olmasının 150 illiyinin qeyd edilməsində, həm də 2020-ci ilin Abay ili elan olunub, onun anadan olmasının 175 illiyinin təntənələrlə nəinki Qazaxıstanda, həm də Azərbaycanda geniş şəkildə bayam edilməsində və bundan sonra da ediləcəyində görürük.

Abayı yalnız mədəniyyət, ədəbiyyat xadimi kimi görmək onun yaradıcı şəxsiyyətinə kölgə salmaq kimi dəyərləndirilə bilərdi. O, universal təfəkkürlü şəxsiyyət, böyük realist, ensiklopedik əhatəli filosof, psixoloq, estet idi. Çünki Abayın ideyaları 175 il keçməsinə baxmayaraq, öz aktuallığını bütün dövrlər üçün qoruyub saxlamaqdadır. Qazaxıstan prezidenti Qasım Cəmərd Tokayevin təbirincə desək, onun ideyaları hamı üçün mənəvi qida mənbəyi olmaqla, millətin düşüncəsinin modernizasiyasında əhəmiyyətli rol oynamaqdadır.

Abay hər bir qazax övladını öz ölkəsinin vətəndaşı olmağa səsləyirdi. Odur ki, onun irsi müdrik vətənpərvərlik mənbəyidir. Buna görə də Abayın zəngin irsi qazax xalqının yeni keyfiyyətini formalaşdırmağa çağırır.

Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev böyük mütəfəkkir haqqında belə bir fikir söyləmişdi ki, Abay nəinki qazax xalqının mənəvi dünyasına ölçüyəgəlməz töhfələr vermiş dahi insandır. O həm də qazax xalqının ölkə olması naminə müdrikcəsinə işləmiş, fəaliyyət göstərmişdir. Buna görə də Abay dünya səviyyəli müdriklər sırasında əvəzsiz şəxsiyyət olduğunu bütün yaradıcılığı, həyatı və fəaliyyəti ilə sübut etmişdir. Məhz bu keyfiyyətinə görə də Abay yaradıcılığı və dühası daim insanlığı özünə cəlb etməkdədir.

Dünyada təhsilin və elmin inkişafına mühüm töhfələr vermiş universal təfəkkürlü Lao-Si və Konfusi, Dostoyevski və Tolstoy, Volter və Russo, Nizami Gəncəvi və Nəsirəddin Tusi, M.F.Axundzadə və Ə.Hüseyzadə, T.Şevçenko və Y.Kolas və digər şəxsiyyətlər sırasında Abayın bədii-fəlsəfi konsepsiyası ön cərgədə dayanmaqdadır.